UOT 37.01.

**_Dilqəm Qasım oğlu Quliyev,_**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektorun idman işləri üzrə müşaviri, pedaqogika üzrə elmlər doktoru*

**_Fərhad Müslum oğlu Ocaqverdiyev,_**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**_Etibar Dilqəm oğlu Quliyev,_**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

# AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASININ KİTABXANASININ DÜNƏNİ VƏ BUGÜNÜ

**_Дильгам Гасым оглы Кулиев,_**
*советник ректора по спорту, доктор наук по педагогике*
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

**_Фархад Муслим оглы Оджагвердиев,_**
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

**_Этибар Дильгам оглы Кулиев,_**
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

# ВЧЕРАШНИЙ И СЕГОДНЯШНИЙ ДЕНЬ НАУЧНОЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОЙ АКАДЕМИИ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ И СПОРТА

**_Dilqam Gasim Gouliyev,_**
*Adviser on sports of the Azerbaijan State Academy of Phusical Education and Sport*

**_Farxad Muslim Ojagverdiyev,_**
*Azerbaijan State Academy of Phusical Education and Sport*

**_Etibar Dilgam Gouliyev,_**
*Azerbaijan State Academy of Phusical Education and Sport*

# YESTERDAY'S AND TODAY'S SCIENTIFIC ACTIVITIES OF AZERBAIJAN STATE PHYSICAL TRAINING AND SPORT ACADEMY

**Xülasə:** ADBTİA-nın kitabxanasının fəaliyyətinin inkişafı, onun müasir texnologiyalarla avadanlıqlaşdırılması, dövlətin kitabxanaya olan diqqət və qayğısı, yeni elektron kitabxana, kurikulumun təkmilləşdirilməsi, tərtib edilməsi, sistemə salınması, qorunması və şəbəkədaxili daşıyıcıların istifadəyə verilməsi, müxtəlif növ və məzmunda olan sənədlərin qorunması, informasiya texnologiyaların təsviri və onların problemi bu məqalədə öz əksini tapmışdır.

***Açar sözlər:*** *ali təhsil, akademiya, bədən tərbiyəsi, müəllim, tələbə, elmi mühakimələr, tədqiqat və inkişaf, tədris resursları, beynəlxalq təcrübə*

**Резюме:** В данной статье повествуется **о** научной политике нашей республики, успешно и достойно продолжавшаяся почтенным президентом Ильхамом Алиевым, основанная общенациональным лидером Гейдаром Алиевым, развитие науки в нашей стране за последние годы, сохранение и модернизация научно-технического потенциала, подготовка высококвалифицированных кадров в области науки и образования, оказанное им постоянное внимание и забота, эффективность учебного процесса Азербайджанской Государственной Академии Физического воспитания и спорта, научный потенциал и стимулирование инновационной деятельности студентов и педагогического состава Академии, результаты обучения в области физической культуры и спорта, а также научно-исследовательские работы в международном масштабе.

***Ключевые слова:*** *высшее образование, Академия, физическая kультура, педагог, студент, научные обсуждения, исследование и развитие, учебные ресурсы, международный опыт*

**Summary:** The science policy of our republic founded by the national leader Heydar Aliyev and continued successfully and with dignity by our honourable president Mr. Ilham Aliyev, the development of science in our country during the last years, preservation and modernization of scientific-technical potential, high qualified manpower development in the field of science and education, the constant attention and concern paid to them, education process efficiency of Azerbaijan State Physical Training and Sport Academy , scientific potential and stimulation of innovative activity of the students and pedagogical staff of Academy, education results in the field of physical training and sport, as well as scientific-research works on an international scale are stated in this article.

**Key words:** high education, Academy, physical training, teacher, student,
scientific discussions, research and development, training resources, international experience

Ulu öndər Heydər Əliyev kitabxanalara xüsusi diqqət və qayğı göstərərək demişdir: “Kitabxana, xalq, millət, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət, xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.” [4].

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) kitabxanası respublikanın bədən tərbiyəsi və idman sahəsində zəngin ali məktəb kitabxanalarından biridır. ADBTİA Zaqafqaziyada ali bədən tərbiyəsi kadrları hazırlayan ilk tədris ocağı olmuşdur. 1936-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu kimi yenidən qurulduqdan sonra onun həyatında yeni dövr başlanır və o vaxtdan ADBTİA-nın nəzdində kitabxana fəaliyyətə başlayır. İnstitut yarandığı ilk dövrdə ana dilində dərsliklər çatışmırdı. Kitabxanada 1930-cu ildən başlayaraq idman qəzet və jurnalları saxlanılır. Akademiyanın müəllimləri 1953-cü ildən dərsliklər yazmağa başlamışlar. Kitabxananın ümumi sahəsi 384,86 m 2-dir (2015). [1].

1946-cı ildə kitabxananın fondu - 13.053; 1950-1972-ci illərdə - 44.359; 1974-1980-cı illərdə - 52.673; 1980-1987-ci illərdə - 45.653 idi 1987-1990-cı illdə isə 4036 kitab var idi. Kitabxananın 3677 oxucusu, 3 fond, 4 şöbəsi və 2 bölməsi fəaliyyət göstərir (2014). [2]

Akademiyanın yeni rektoru Fuad Hacı oğlu Hacıyevin fəaliyyəti nəticəsində (23.XII.2015) qısa müddətdə akademiyanın maddi-texniki bazası əhəmiyyətli dərəcədə dəyişilmiş, tədris yüksək səviyyədə təşkil olunmuş, tələbələrin dərsə davamiyyəti artmış, ən başlıcası isə rektorun Daxili İntizam Qaydalarının təsdiq edilməsi haqqında 11 fevral 2016-cı il tarixli S-08 əmrinə əsasən təlim-tərbiyə prosesinin səviyyəsi yüksəlmişdir.

"Kitabxananın kompüterləşdirilməsi" haqqında 1999-cu ildə Təhsil Nazirliyi qərar imzalamışdır. Bunu nəzərə alaraq, 2015-ci ildən, ilk dəfə olaraq, ADBTİA-nın kitabxanasında elektron kataloqun (EK) yaradılmasına başlanılmışdır. Akademiyanın kitabxanasının bazası əsasında yaradılan bu laboratoriyanın məqsədi akademiyanın kitabxana-informasiya fəaliyyətində bütün kitabxana proseslərinin mərhələlərlə kompüterləşdirilməsi üçün yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı nəzəri və təşkilati məsələlərlə, problemlərlə işləməkdir. İlkin mərhələdə kitabxanada qorunan elmi, tədris və digər ədəbiyyatlardan ibarət milli kitab fondunun elektron kataloqu, verilənlər bazası yaradılmışdır. Kitabxananın Azərbaycan dilində olan fondu tam elektron kataloqa daxil edilmişdir və bu proses hal-hazırda davam etdirilir.




Beynəlxalq təcrübəni öyrənmək üçün akademiyanın əməkdaşları Türkiyə, Almaniya, Rusiya, Belarus, Sloveniya və Bolqarıstana səfər etmişlər. Daha çox Köln Alman İdman Universitetinin təhsil modelinə istinad etmək məqsədəuyğun hesab edilmişdir. İnanıram ki, akademiyada təhsil almaq istəyən tələbələrin sayı ilbəil artacaq."

2016-cı il yanvar ayından akademiya kitabxanasının avtomatlaşdırılması istiqamətində işlərə başlanmışdır.

Kitabxanada aparılan təmir işləri ilə əlaqədar olaraq fond boşaldılmışdır. Otaqlar, fondlar yenidən təmir olunmuşdur. Kitabxana yeni müasir avadanlıqlarla təchiz olunmuşdur.

ADBTİA-nın kitabxanasının fəaliyyəti bütün şöbələrdə mütəşəkkil şəkildə bərpa edilmişdir.

Elektron kitabxana sisteminə keçməklə kitabxanada olan bütün işlər avtomatlaşır. Oxuculara xidmətin daha effektiv formada olması üçün kitabların elektron versiyalarının hazırlanması, ixtisasa uyğun olan elektron kitab, məqalə, audio və video materialların axtarışlarına başlanılmışdır. Kitabxana idarəetmə sistemi olaraq ABŞ-nın FOLLETT Solution şirkəti tərəfindən hazırlanmış Follett Library Manager sistem proqramı alınmışdır. Dünyanın 60000-dən çox kitabxanasında fəaliyyət göstərən bu proqram kitabxana daxili bütün əməliyyatları avtomatlaşdırır. Proqram:

- Özündə xidmət, qəbuletmə, kataloqlaşdırma, statistik məlumatları birləşdirən və kitabxana işini avtomatlaşdıran bir sistemdir.
- Kitabların qəbulu, oxucuya xidmət, qaytarılma və gecikmə haqqında kitabxanaçıya və oxucuya məlumat verilir.
- Dünya elektron kitabxana bazalarından istifadə və lazımi ədəbiyyatın öz bazamıza köçürülməsinə imkan verir
- İstifadəçilər üçün bazalarda olan elektron kitab, pullu və ya pulsuz ədəbiyyatdan, audio və video dərsliklərdən istifadə imkanları verir.
- İstənilən web brauzerdən və telefonlardan birbaşa kitabxanadan istifadə etmək imkanı verir.

■ Xidmət, kataloqlaşdırma, inventarlaşdırma və statistik məlumatlardan istifadəni asanlaşdırır.

■ Hər yerdə vaxt məhdudiyyəti olmadan hər kəsin daxil ola biləcəyi elektron kataloqa giriş imkanı verir.

■ Özündə qəbuletmə, kataloqlaşdırma, dövriyyə xidmətlərini və dövri mətbuatın davamlılığını nəzarətdə saxlayan SİRİUS modulunu cəmləşdirir.

■ Uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərir.

■ Vaxt və məkan asılılığına son qoyur.

■ Ənənəvi kitabxanalardan fərqli olaraq 24/7 fəaliyyət göstərir.

Elektron kitabxanalarla ənənəvi kitabxanaların həm fərqli, həm də oxşar cəhətləri var. [2].

Fərqlər:

• İnformasiya daşıyıcısına, tərkibinə;

• İnformasiya məhsulunun formalaşmasının texnoloji proseslərinə, mühafizə və təqdimetmə üsullarına;

• İstifadəçilərə xidmət məqsədinin xarakteri və həlli yoluna;

• Hüquqi və struktur asılılığına;

• İnformasiya məhsuluna mülkiyyət, surətini çıxarma və yayma hüququ;

İnformasiya resurslarından istifadə üsullarına və s. görə, bu siyahını davam etdirmək də olar.

Oxşar cəhətlərə gəldikdə isə, demək olar ki, onlar bir-birini tamamlayır. Elektron kitabxanalar professional kitabxana-informasiya mütəxəssisi təcrübəsindən, eyni zamanda, kitabxana sahəsində mövcud beynəlxalq standartların tələblərindən istifadə etməyə bilməz.

Bütün bunlara baxmayaraq hər iki - ənənəvi və elektron kitabxanaların hüquqi, təşkilati və texnoloji yaxınlıq xüsusiyyətlərinə baxmayaraq, onlar cəmiyyətin müxtəlif informasiya strukturlarıdır.

Elektron kitabxanaların yaradılmasının bir neçə obyektiv səbəbi vardır:

1) istifadəçi müəyyən kitabxanaya gəlmədən, istənilən coğrafi ərazidə yerləşməsindən asılı olmayaraq, həmin kitabxananın elektron resurslarını birbaşa istifadə edə bilər;

2) elektron kitabxana ən qiymətli və nadir nüsxəli ədəbiyyatı mühafizə edir;

3) çap əsərlərini istənilən yerdə oxumaq daha əlverişli və rahatdır;

4) elektron kitabxanaların "qapısı" heç vaxt bağlı olmur;

5) elektron kitabxanaların yaradılmasının obyektiv səbəblərindən biri də ənənəvi kitabxanaların saxlanmasına qənaət edilməsidir.

Hazırda elektron kitabxanaların yaradılması ənənəvi kitabxanaların saxlanması xərclərinə və inkişafına sərf olunan xərclərdən çoxdur.

Elektron kitabxana ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya ehtiyatlarına malikdir. Elektron kitabxanaların informasiya ehtiyacı rəqəmli formada hazırlanmış müxtəlif formatlı sənədlərdən ibarətdir.

Z 39.50 protokolunu dəstəkləyən proqram bizə beynəlxalq kitabxanalara çıxış imkanları verir. Bu protokol (Z39.50 Search and Retrieval Protocal (ISO23950) – axtarış və əldəetmə portokolu da adlanır.

Kitabxana proqramlarında istifadə olunan open communication protokoludur**.** Yəni proqram və təchizatın müstəqil olaraq inkişaf etdirilmiş axtarış və biblioqrafik informasiya mübadiləsini təmin edən bir şəbəkə protokoludur. Bu protokol NİSO tərəfindən işlənib hazırlanmışdır. NİSO (American National Information Standartd Organization) Z39.50 kimi kitabxanaçılıq, məlumat mərkəzləri, dövlət sektorunda istifadə edilən texniki standartları inkişaf etdirən bir təşkilatıdır.

Z 39.50 İki kompüter arasında 'peer to peer' olaraq adlandırılan üsulla əlaqə qurur. Burada vasitəçi / server əlaqəsi vardır. Z39.50 Client (Origin) olaraq adlandırılır. Yəni, yoxlamanın başladılması, sorğu yaradılması və qarşı tərəfə göndərilməsi burada olur. Yəni sorğuya uyğun nəticələri çıxarır və vasitəçiyə ötürür.

Abonomentdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Müəllimlər üçün nəzərdə tutulmuş qiraət zalında 12 yer vardır. Bunlardan 4-ü kompüterlə təchiz olunmuşdur. Tələbələr üçün nəzərdə tutulmuş qiraət zalında isə 48 yerin 8-i kompüterlə təchiz olunmuşdur. Zalın öz yardımçı fondu var. Bu fond əsas məlumat xarakterli ədəbiyyatdan ibarətdir. Bundan əlavə, kitabxana üçün əlavə olaraq 2 müzakirə otağı da oxucuların ixtiyarına verilmişdir.

Kitabxana 2015-ci il üçün 11 adda qəzet, 6 adda jurnala abunə olmuşdur. Kitabxana üçün müəlliflərdən və nəşriyyatlardan 3189 ədəbiyyat alınmışdır. Bunlardan 2600 ədədi dərslik, 589 ədədi isə elmi ədəbiyyatdır. Kitabxanada köhnə və öz əhəmiyyətini itirmiş ədəbiyyatın silinməsi işi davam etdirilir.

Kitabxana əməkdaşları üçün akademiyada kurslar təşkil olunub. Keçirilən görüşlərə əsasən əməkdaşların fəallığı özünü göstərir. Kursda elektron kitabxana və idarəetmə proqramı haqqında məlumatlar verilir. Kurslar 2017-ci il yanvar ayında başa çatmışdır.

Kitabxananın texniki şöbəsində təmirdən sonra fonddan boşaldılmış və il ərzində alınan kitablar operativ işlənib fondda rəflərə düzülmüşdür. Şöbəyə sentyabr ayında 380 nüsxə kitab (375 nüsxəsi Azərbaycan dilində**,** 5 nüsxəsi rus dilində) daxil olmuşdur. Kitablar işlənib fonda təhvil verilib**.** 7 akt kitabların silinməsinə görə hazırlanıb**.** 1906 nüsxə inventar kitabından çıxarılıb. Dekabr ayında oxucular tərəfindən itirilmiş kitablar inventar kitabına salınıb.

Kitabxanaya təmir dövründən sonra sentyabr ayından 3965 oxucu qeydiyyatdan keçib. Gün ərzində kitabxanadan 250-300 oxucu istifadə edir. Ay ərzində 1000 -ə yaxın kitab verilişi var. Təmirəqədərki dövrdə kitabxananın fondunda 225870 nüsxə ədəbiyyat vardır. Bunun 11000-i elmi, 12968-i tədris, 58700-ü bədii, 104956-sı idman, 25635-i ictimai-siyasi, 1121-i xarici, 1397-si mübadilə ədəbiyyatlarıdır. Kitabxananın profilinə uyğun olaraq fondda dərsliklər və dərs vəsaitləri xüsusi yer tutur.

Hazırda kitabxananın elmi, tədris və bədii ədəbiyyatdan ibarət 1 abonoment şöbəsi, 1 texniki şöbəsi, 58 oturacaq yeri olan 2 qiraət zalı fəaliyyət göstərir.

2015-ci tədris ilində tələbə və müəllim heyətinə oxucu olaraq 194880 nüsxə kitab verilmişdir. Kitabxanada kütləvi tədbirlərin keçirilməsi əvvəlcədən planlaşdırılır. Kitabxanada yubiley və tarixi günlərin qeyd olunması üçün bir sıra tədbirlər hazırlayıb həyata keçirilmişdir. Kitabxananın oxu zalında oxuculara geniş şəkildə dolğun məlumatlar verilir.

Son 2 ildə akademiyanın kitabxanasının qiraət zalları müasir standartlara uyğun əsaslı təmir edilmiş, yeni, rahat mebel avadanlıqları, kompüter texnologiyaları alınmışdır.

Akademiyanın kitabxanası müdiriyyətin məqsədyönlü rəhbərliyi, həmişə axtarışda olan alimlərinin, ali təhsilli mütəxəssislərinin böyük ruh yüksəkliyi ilə çalışması və akademiya rəhbərliyinin sonsuz qayğısı sayəsində 2 il ərzində zəngin ali məktəb kitabxanalarından birinə çevrilmişdir.

Kitabxanada 9 işçi çalışır. Xəlilov Dönməz Abdulla oğlu kitabxananın direktor müavini-elektron, Umudova Pəri Hüseyn qızı isə kitabxananın direktoru vəzifəsində çalışırlar**.**

ADBTİA-nın müasir kitabxanası şəxsiyyətin formalaşması üçün mədəniyyət fenomenidir. O, yaradılan mədəni sərvətləri və informasiya resurslarını toplayır və qoruyur, eyni zamanda, onların istifadəsini və yayımlanmasını təmin edir.

**Tədqiqatın məqsədi:** Akademiyanın kitabxana-informasiya fəaliyyətində bütün kitabxana proseslərinin mərhələlərlə kompüterləşdirilməsi üçün yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı nəzəri və təşkilati məsələləri, problemləri işləməkdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Qarşıya qoyulan məqsədi həyata keçirməklə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil prosesinin keyfiyyətinin artırılması, eləcə də rəqəmsal resursların istifadəsi genişləndirilmiş çərçivədə tam funksional elektron kitabxana yaratmaq, informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətlərinin inkişaf etdirilməsinə imkan yaranır, habelə bədən tərbiyəsi və idman sahəsində yüksək dərəcəli kadrların hazırlığının müasir elmi bilik sistemində yeri, elmi quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanası oxuculara xidmətin daha effektiv formada olması üçün kitabların elektron versiyalarının hazırlanması, ixtisasa uyğun olan elektron kitab, məqalə, audio və video materialların təşkilinin inkişaf tendensiyası elmi şəkildə araşdırılmış, onun məzmunu müəyyənləşdirilmiş və yeni modelinin forma və metodlar kompleksi tapılmışdır.

Tədqiqat prosesində belə **nəticəyə** gəlmək olar ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminat işlərinin təşkili problemi tədqiq olunur.

**Ədəbiyyat:**

1. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının arxivi. Opis № 3"s" 1939.
2. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının salnaməsi. Bakı: Araz, 2010.
3. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının salnaməsi. Bakı: Lettepress, 2015.
4. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan müəllimi" qəz., 2009, 7 sentyabr

**E-mail:** mr.quliyev.d@mail.ru
**Rəyçilər:** *prof.* O.M. Cəfərov,
*prof.* X.K. Qurbanov
**Redaksiyaya daxil olub:** 05.11.2018.